**UOT 338.4**

# MÜƏSSİSƏNİN DAXİLİ MALİYYƏ İNFRASTRUKTURUNUN FORMALAŞMASI PROSESİNİN İDARƏ EDİLMƏSİ

**QASIMOVA ZÜLFİYYƏ MİRZƏ qızı**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
*aidatagiyeva02@gmail.com*

***Açar sözlər:*** *maliyyə, infrastruktur, idarəetmə, müəssisə, sahibkarlıq, bazar münasibətləri, strateji plan*

Müasir şəraitdə sənaye müəssisələrində təchizat, texniki xidmət, məhsulun istehsalı, emalı və satışında baş vermiş dəyişikliklərlə əlaqədar həmin proseslərin kompleks şəkildə idarə edilməsi tələb olunur. İdarəetmə fəaliyyətinin əsas məqsədlərindən biri müəssisənin maliyyə vəsaitlərinin xərc istiqamətlərinin düzgün müəyyənləşdirilməsidir. Həyata keçirilən bu fəaliyyət növü istehsalat və xidmət sahələrində təsərrüfat subyektlərinin fasiləsiz maliyyələşdirilməsinə nail olmaq baxımından vacibdir. Odur ki, müəssisədə daxili maliyyə infrastrukturunun idarə edilməsi aktual problem kimi qarşıda durur.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində maliyyə infrastrukturlarının rolu olduqca yüksəkdir. Maliyyə infrastrukturlarının köməyi ilə istehsal edilmiş məhsulun daha az xərclərlə alıcılara çatdırılması müəssisələrdə məhsulların hərəkətinə və onun satışına dəstək verilir. Maliyyə infrastrukturunun idarə edilməsi sisteminin normal gedişatının təmin olunması onun çevikliyinin, səmərəliliyinin artırılması üçün mühüm əhəmiyyətə malikdir. Belə idarəetmə sisteminin normal fəaliyyət göstərməsi üçün bir sıra şərtlərə əməl etmək lazımdır. Əks təqdirdə maliyyə infrastrukturunun idarə edilməsi sistemi öz fəaliyyətini nizamsızlaşdırar və mənfi nəticələr baş verə bilər [3, s.49].

Müəssisənin daxili maliyyə infrastrukturunun idarəetmə prosesi bir sıra mərhələlərdən ibarətdir. Bu mərhələlər aşağıdakılardır:

- idarəetmə məqsədinin müəyyənləşdirilməsi;
- idarə edilən sistemin vəziyyəti, xarici mühit haqqında informasiya yığımı;
- informasiyanın təsnifatı;
- informasiyanın işlənməsi;
- idarəetmə qərarlarının hazırlanması və qəbulu;
- idarə edilən sistemin vəziyyətini dəyişdirmək;
- idarəetmənin nəticələrinin qiymətləndirilməsi.

Maliyyə infrastrukturunun hər bir idarəetmə mərhələsinin müəyyən bir müstəqilliyi vardır. İdarəetmə mərhələləri ömür boyu sabit qalmır, o, konkret tarixi şərait, elmi-texniki tərəqqinin inkişaf mərhələlərindən asılı olaraq dəyişilə bilər.

İdarəetmə işləri özbaşına həyata keçirilmir. İdarəetmə işləri idarəetmə vəzifələrindən irəli gəlir. İdarəetmə işləri ilə müəyyən funksiyaların icra edilməsi, idarə edən sistemin təşkili ilə əlaqədardır. İdarəetmə funksiyası obyektiv məqsəd və nəticələrin ümumiliyi ilə xarakterizə olunur ki, bu da göstərdiyimiz funksional əmək bölgüsündən irəli gəlir. Buna uyğun olaraq idarə aparatı təşkil olunur. Onun hər bir bölməsi və hər bir işçisi müəyyən funksiyaların icrası üzrə ixtisaslaşırlar.

Maliyyə infrastrukturunun idarə edilməsi müəssisələrdə qənaət rejiminə əməl olunması, mal-material, pul və əmək ehtiyatlarının səmərəli istifadəsi baxımından mühüm əhəmiyyətə malikdir. Həmçinin müəssisədə fasiləsiz olaraq təsərrüfat-maliyyə fəaliyyətinin aparılması, bu zaman

meydana çıxan nöqsan və çatışmazlıqların vaxtında aşkar edilib, onların aradan qaldırılması baxımından da önəmlidir [2, s.276].

Son illərdə bir çox alimlərin fikirlərinə görə, maliyyə infrastrukturlarının idarə edilməsində əsas məqsəd mənfəəti maksimallaşdırmaqdan ibarətdir. Lakin dünyada qlobal maliyyə böhranının baş verdiyi bir şəraitdə bir çox müəssisələrin iflasa uğramasının səbəbinin araşdırılması nəticəsində məlum olmuşdur ki, bu infrastrukturların idarə edilməsinin əsas məqsədi təkcə mənfəətin maksimallaşdırılmasından ibarət olmamalıdır. Ona görə ki, belə olduğu halda müəssisənin böhranın nəticələrinə davamlılığı uzunmüddətli ola bilməz. Belə ki, əldə edilən mənfəət çox böyük riskli ola bilər, yaxud da müəssisə həmin mənfəəti əldə etmək üçün maliyyə idarəçisinin razılaşdığı şərtlərlə müəssisənin sonradan üzləşdiyi riskin qarsısını almağını çətinlişdirər. Səhmlərin satışını reallaşdıraraq mənfəəti maksimallaşdırmaq mümkündür. Lakin səhmlərin satışından əldə edilən mənfəəti müəssisənin iqtisadi gücü və iqtisadi davamlılığının göstəricisi kimi qəbul etmək düzgün yanaşma deyildir. Həm də bu zaman bir səhmə düşən mənfəət azala da bilər. Digər tərəfdən isə hər bir səhmə düşən mənfəətin artması mənfəətin maksimumlaşdırılması ilə eyni hesab edilsə də, təkbaşına maliyyə infrastrukturunun idarə edilməsinin məqsədi kimi kifayət etmir.

Daxili maliyyə infrastrukturunun idarə edilməsinin müəssisənin fəaliyyətində əhəmiyyətli rollarından biri istehsal-təsərrüfat fəaliyyətinin davamlılığını təmin etməkdən ibarətdir. Əgər müəssisə uzun müddət istehsal-təsərrüfat fəaliyyətini davam etdirə bilirsə, bu o deməkdir ki, müəssisə rentabellidir, onun məhsullarının kifayət qədər alıcısı vardır. Bu, eyni zamanda müəssisənin gördüyü iş və xidmətin, istehsal etdiyi məhsulun davamlı istehlakçısının olması üçün də zəmindir. İstehlakçılar da uzun müddət fəaliyyət göstərən müəssisənin məhsullarına üstünlük verirlər. Fəaliyyətin davamlılığı müəssisənin maliyyə infrastrukturunun səmərəli idarə edilməsi üçün əsas məqsədlərdən biri kimi çıxış edir.

Maliyyə infrastrukturunun idarə edilməsində əsas məqsədlərdən biri müəssisənin dəyərinin artırılmasından ibarətdir. Bu, səhmdarlar üçün hər bir səhm vahidi üzrə qiymətin artması deməkdir. Bütün səhmlərin qiymətinin cəmi müəssisənin real dəyərinə bərabərdir. Müəssisənin ümumi dəyəri artırsa, bu dəyəri səhmlərin sayına böldükdə hər bir səhmin dəyərinin artmasının şahidi olarıq. Bu zaman alınan qiymət səhmin real qiymətini əks etdirir. Səhmin nominal qiyməti isə real qiymətdən yuxarı və ya aşağı ola bilər. Nominal qiymət səhmin bazar qiymətini təşkil edir. Bazar qiyməti öz növbəsində müəssisənin investisiya qoyuluşu, maliyyələşdirmə, maliyyə infrastrukturu və bütövlükdə maliyyə sisteminin idarə edilməsi siyasətinin nəticəsi olaraq yaranır.

Maliyyə infrastrukturunun idarə edilməsi müəssisənin strateji məqsədləri ilə uzlaşdırılmalıdır. Belə ki, maliyyə infrastrukturunun idarə edilməsi strateji planların reallaşmasına xidmət etməlidir. Bu isə o deməkdir ki, maliyyə infrastrukturunun idarə edilməsi planlaşdırmaya əsaslanır. Başqa sözlə desək, dəqiq və əhatəli planlaşdırma olmasa, maliyyə infrastrukturunun səmərəli idarə edilməsi də qeyri-mümkündür. Odur ki, maliyyə infrastrukturunun idarə edilməsinə planlaşdırmanın bir tərkib hissəsi kimi yanaşmaq lazımdır [1, s.124].

Bazar münasibətləri şəraitində müəssisənin uzun müddət səmərəli fəaliyyət göstərməsi, yüksək inkişaf tempinin təmin edilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi onun maliyyə infrastrukturunun strateji idarə edilməsi səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Strateji idarəetmə strateji planlaşdırma metodologiyasının inkişafı əsasında meydana gəlmişdir. Planlaşdırma maliyyə infrastrukturunun idarə edilməsinin başlıca, əsas funksiyası olmaq etibarilə, əsasən aşağıdakı üç cəhəti əhatə edir:

1. Müəssisənin maliyyə sisteminin gələcək inkişafını müəyyən etmək;
2. Maliyyə infrastrukturları qarşısında qoyulmuş sosial – iqtisadi məqsədlərə nail olmanın yolları və metodlarını müəyyənləşdirmək;
3. Maliyyə tədbirlərinin həyata keçirilməsinin nəticələrini əvvəlcədən görmək, başqa sözlə, hadisələrə sistem halında yanaşmaq.

Beləliklə, müəssisənin daxili maliyyə infrastrukturunun formalaşması prosesinin idarə edilməsi üzrə aşağıdakı əsas hədəfləri müəyyənləşdirmək olar:

1. Müəssisənin təsərrüfat fəaliyyətinin inkişaf perspektivlərinin nəzərə alınması. Maliyyə infrastrukturunun formalaşdırılması prosesinin idarə edilməsi müəssisənin strateji inkişafının bütün mərhələlərində təsərrüfat fəaliyyətinin təmin edilməsinə hədəflənir.

2. Müəssisənin maliyyə təhlükəsizliyi baxımından maliyyə infrastrukturunun formalaşmasının optimal strukturunun təmin edilməsi. Maliyyə infrastrukturunun formalaşmasının optimal strukturu strateji inkişaf prosesində müəssisənin maliyyə tarazlığını təmin edir.

3. Maliyyə infrastrukturunun səmərəli idarə edilməsi məqsədilə strateji planların işlənib hazırlanması. Maliyyə infrastrukturunun idarə edilməsi prosesinin səmərəliliyi strateji plandan xeyli asılıdır. Strateji planın müəyyən edilməsi gələcəyə ciddi və sistemli hazırlığı təmin edir.

Bu meyillər müəssisənin maliyyə infrastrukturunun formalaşması prosesinin idarə edilməsinin əsas məzmununu təşkil edir.

***Elmi yeniliyi:*** Müəssisənin daxili maliyyə infrastrukturunun formalaşması prosesinin idarə edilməsi üzrə əsas hədəflər müəyyənləşdirilmişdir.

***Tətbiqi əhəmiyyəti*:** Məqalədə irəli sürülən təklif və tövsiyələrin reallaşması müəssisənin daxili maliyyə infrastrukturunun formalaşması prosesinin səmərəli idarə edilməsində mühüm rol oynaya bilər.

## ƏDƏBİYYAT

1. Abbasov A.B. və b. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 2011, 464 s.
2. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı. Bakı: Biznes Universiteti, 2013, 304 s.
3. Ataşov V.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Bakı: Kooperasiya, 2009, 336 s.

## РЕЗЮМЕ
## УПРАВЛЕНИЕ ПРОЦЕССАМИ ФОРМИРОВАНИЯ ВНУТРЕННЕЙ ФИНАНСОВОЙ ИНФРАСТРУКТУРЫ ПРЕДПРИЯТИЯ

***Гасымова З.М.***

***Ключевые слова:*** *финансы, инфраструктура, управление, предприятиу, предпринимательство, рыночные отношения, стратегический план*

В статье рассмотрены основные этапы процессов управления внутренней финансовой инфраструктурой предприятия. Теоретически обоснована цель, стоящая перед управленческими процессами. Также определены основные цели управления процессами формирования внутренней финансовой инфраструктуры предприятия.

## SUMMARY
## MANAGEMENT OF THE FORMATION PROCESS OF THE INTERNAL FINANCIAL INFRASTRUCTURE OF THE ENTERPRISE

***Gasimova Z.M***

***Key words:*** *finance, infrastructure, management, enterprises, entrepreneurship, market relations, strategic plan*

The article describes the main stages of the management processes of the internal financial infrastructure of an enterprise. The goal was theoretically substantiated faced by management processes. Also identified the main objectives of the management processes of formation of the internal financial infrastructure of the enterprise.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 24.09.2018 |
| | Son variant | 27.03.2019 |

**UOT 911.3 : 63**

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**[1]ABDULLAYEVA ZOYA HAMLET qızı**
**[2]VƏLİYEV ALLAHVERDİ CAMAL oğlu**
*Sumqayıt Dövlət Universiteti,1-dosent, 2-baş müəllim*
cografiya_tedrisi@mail.ru

***Açar sözlər:*** *turizm təsərrüfatı, Quba-Xaçmaz iqtisadi rayonu, rekreasiya ehtiyatları, tarixi-mədəni abidələr,daxili və xarici turizm*

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf proqramının əsas istiqamətlərindən biri respublika regionlarında turizm təsərrüfatının sürətlə inkişaf etdirilməsidir. Azərbaycanın regionları çox zəngin rekreasiya potensialına malik olsa da, bu ehtiyatlardan hələ kifayət qədər istifadə olunmur.

İqtisadi islahatlar şəraitində ölkədə həyata keçirilən əsaslı struktur dəyişiklikləri turizm ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsini, habelə beynəlxalq təcrübənin yeni forma və metodlarından istifadə edilməsi tələblərini qarşıya qoyur. Bütün bunlar turizm sisteminin öyrənilməsini, bu sahədə iqtisadi-coğrafi tədqiqatların aparılmasını, onun bazar iqtisadiyyatı şəraitinə uyğun qurulmasını və təkmilləşdirilməsini tələb edir.

Müasir dövrdə Quba-Xaçmaz iqtisadi rayonunda turizmin inkişaf perspektivləri və onların təsərrüfat cəhətdən qiymətləndirilməsi respublikamız üçün aktual məsələlərdən biri hesab olunur. Quba-Xaçmaz iqtisadi rayonunun təbii şəraiti, tarixi-mədəni abidələri və infrastukturu Xınalıq və Ləzə kimi dağlıq ərazilərdə və dənizkənarı düzənliklərdə daxili və xarici turizmin beynəlxalq səviyyədə inkişafı və turizm mərkəzlərinin yaradılması üçün geniş perspektivlər açır. Bölgədə turizmin inkişaf səviyyəsi inzibati rayonlar üçün müxtəlifdir.

Quba-Xaçmaz iqtisadi rayonunun turizm təsərrüfatında aparılan köklü dəyişikliklərin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, rekreasiya ehtiyyatlarını iqtisadi və sosial cəhətdən qiymətləndirərək, bu sərvətlərin potensial imkanlarını ümumiləşdirməklə onlardan gələcəkdə necə istifadə edilməsi istiqamətlərini müəyyən etmək mümkündür.




***Şəkil 1.*** *Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu*

Rayonun Azərbaycan Respublikası və Rusiya Federasiyası sərhədində yerləşməsi ona olduqca böyük geosiyasi əhəmiyyət verir. Bu əhəmiyyət rayonun iqtisadi resurslar etibarilə kifayət qədər zəngin olması ilə tamamlanır. Həm də bölgə xarici iqtisadi əlaqələr baxımından fəal bir bölgədir.

Quba-Xaçmaz rayonu mineral su ehtiyatları ilə zəngindir. Şabran rayonunda Qalaaltı mineral suyunu mütəxəssislər Karpat dağlarının ətəyindəki Turuskavets suları ilə müqayisə edir. Böyük Qafqaz silsiləsinin şimal-şərq yamacında mineral bulaqlardan məşhurları Quba rayonunda Cimi, Xaltan, Balbulaq, Xaşı, Düz Bilici mineral sularıdır. Nabran istirahət zonasında mineral və soyuq bulaqlar təbii rekreasiya ehtiyatı olmaqla, kurort təsərrüfatının inkişafı üçün çox əhəmiyyətlidir. Qeyd edək ki, Quba-Xaçmaz rayonunda mövcud olan mineral su ehtiyatının potensial imkanlarından hələ tam istifadə edilmir [4].

Rayona yerli və xarici investorlar cəlb etməklə, pansionatlar və kurort-istirahət mərkəzləri şəbəkəsini genişləndirmək olar. Quba-Xaçmaz rayonunun landşaftı onun əhatə etdiyi ərazidə eyni deyildir. Belə ki, bölgədə bir neçə landşaft qurşağı ayrılır ki, bunların da özünəxas füsünkarlığı vardır. Bunlar arasında enliyarpaqlı dağ-meşə landşaft qurşağında yüksəkliyinə görə fərqli (alçaq, orta, yüksək) zonalar vardır. Quba, Qusar, Şabran rayonlarında alçaq dağ-meşə landşaft zonası rekreasiya və turizm cəhətdən daha çox mənimsənilmişdir. Ümumiyyətlə, Quba-Xaçmaz rayonunun ərazisinin təqribən 10-11%-i meşələrlə əhatə olunmuşdur. Şahdağ və Altıağac Milli parklarının bir hissəsi Quba-Xaçmaz rayonunun ərazisindədir. Bu Milli parklarda təbiətin rəngarəngliyi və zənginliyi rekreasiya və turizm fəaliyyətini genişləndirmək üçün təbii imkanlardır [4].

***Cədvəl.***

*Quba-Xaçmaz iqtisadi rayonu üzrə qəbul edilmiş və göndərilmiş turistlərin sayı*

| № | İnzibati rayon və şəhərlər | Qəbul edilmiş turistlərin sayı, nəfərlə | | Göndərilmiş turistlərin sayı, nəfərlə | |
|---|---|---|---|---|---|
| | | 2006 | 2014 | 2006 | 2014 |
| 1. | Ölkə üzrə cəmi: | 14472 | 10657 | 31133 | 81648 |
| 2. | İqtisadi rayon üzrə-cəmi: | 1854 | - | 75 | 132 |
| 3. | Qusar rayonu | - | - | 75 | - |
| 4. | Xaçmaz rayonu | 1656 | - | - | - |
| 5. | Quba rayonu | 198 | - | - | - |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*

Quba-Xaçmaz rayonuna gedənlərin əksəriyyəti istirahətlərini qeyri-mütəşəkkil şəkildə keçirirlər. Bu səbəbdəndir ki, bölgəyə səfər edənlərin sayı haqqında rəsmi məlumat əldə etmək mümkün deyildir (cədvəl). Rayonun Xəzərsahili zonasında istirahət edənlər əsasən çimərlik turizminə üstünlük verir. Lakin rekreantların təqribən 12-15%-i "sakit" istirahəti seçirlər. Quba-Xaçmaz iqtisadi rayonu tarixi-mədəni abidələrlə zəngindir. Bu ərazidə qədim şəhər qalıqları, qalalar, istehkamlar, məqbərələr, türbələr, pirlər, mağaralar və turist baxımlı digər yerlər mövcuddur. Bu tarixi-mədəni abidələr dünya, ölkə və yerli əhəmiyyətli olmaqla təsnifləndirilir.

Siyəzən rayonu zəngin tarixə malikdir. Zarat kəndinin yaxınlığında Xızırzində Baba deyilən Beşbarmaq xarabaları, Sedan kəndi yaxınlığında isə Dindar qalasına aid olan Qara Dundur istehkamının xarabaları vardır. Bundan əlavə, Şıxlar kəndi yaxınlığında XV əsrdə ucaldılmış Şeyx Heydər məqbərəsi və Gilgilçay qəsəbəsində XVIII əsrdə tikilmiş Pir Xəlil türbəsi yerləşir. Siyəzən rayonunda dünya əhəmiyyətli tarixi mədəni abidələrə aid edilir: Beşbarmaq müdafiə səddi (IV-VII əsrlər) - bu istehkam Beşbarmaq dağının ətəklərindən Xəzər dənizinə qədər uzanırdı. Səddin bir hissəsi qalmışdır [3].

Gilgilçay müdafiə istehkamlar kompleksi (V əsr) - abidə Siyəzən rayonunun Yenikənd, Kolanı, Eynibulaq, Daşlı Çalğan, Qalaaltı kəndlərindən keçərək Çıraqqala ilə birləşir. Siyəzəndə ölkə və yerli əhəmiyyətli abidələr də çoxdur.

Quba rayonu. XIX əsrin ortalarından başlayaraq rayonun ticarət və işgüzar hissəsi olan şəhər mərkəzində Quba hakimlərinin Xan sarayı yerləşirdi. Hazırda Xan sarayının yerləşdiyi meydan Bazar adlandırılır. Şəhərin məşhur tarixi mədəni abidələrinə Cümə məscidi, Quba qalasının keçmiş hasarları, İnqilab meydanı, tarix muzeyi, A.A.Bakıxanovun ev muzeyi, Hündür gümbəzli hamam, körpü və s. aiddir. Şəhərin mərkəzində yerləşən Cümə məscidi Qubada ən böyük məsciddir. Qubada əsl adı Qüdsi olan Səkinə xanım məscidi maraqlı tarixə malikdir. Belə ki, bu məscidi Səkinə xanım A.A.Bakıxanovun şərəfinə tikdirmişdir. Azərbaycanın siyasi diplomatiya tarixində mühüm xidmətləri olan A.A.Bakıxanov 1847-ci ildə Həcc ziyarətinə gedərkən Qubada onun üçün məscid tikdirməyi Səkinə xanıma vəsiyyət edir. Lakin elə həmin il Məkkədə vəfat edən A.A. Bakıxanov orada da dəfn olunur. Səkinə xanım məscidi 1854-cü ildə istifadəyə verilmişdir.

Quba şəhəri və yaxın ətraflardakı tarixi-mədəni abidələrə dərketmə turların təşkili üçün imkanlar genişdir. Quba şəhəri ilə üzbəüz, Qudyalçayın sol sahilində, çayın qədim terrası üzərində ensiz zolaq şəklində sahilboyu uzanan ərazidə Azərbaycanda dağ yəhudilərinin ən böyük icmasının məskunlaşdığı Qırmızı qəsəbəsi yerləşir. O, 1926-cı ilədək Yəhudilər qəsəbəsi adlandırılırdı.

Qəsəbənin əsasını XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Quba xanı Hüseynəli xan və oğlu Fətəli xan qoymuşdur. Onların Qubaya gəlməsi Nadir şahın dövrünə (1736 – 1747) təsadüf edir. Sonralar Qırmızı qəsəbəyə Azərbaycanın bir çox yerlərindən, həmçinin İrandan yəhudilər köçüb gəlmişlər. Ona görə də qəsəbədə yerli yəhudilərin kilsələri ilə yanaşı məhəllələri də vardır. Qəsəbədə 11 sinaqoq olmuşdur, hazırda onlardan yalnız 7-si saxlanılmışdır.

Quba-Xaçmaz iqtisadi rayonunun turizm təsərrüfatında aparılan köklü dəyişikliklərin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, rekreasiya ehtiyatlarını iqtisadi və sosial cəhətdən qiymətləndirərək, bu sərvətlərin potensial imkanlarını ümumiləşdirməklə onlardan gələcəkdə necə istifadə edilməsi istiqamətlərini müəyyən etmək mümkündür.

***Elmi yeniliyi:*** Məqalədə Quba-Xaçmaz iqtisadi rayonunun rekreasiya ehtiyatlarından turizm təsərrüfatında istifadə olunmasının potensial imkanları müəyyən edilmişdir.

***Tətbiqi əhəmiyyəti:*** İqtisadi islahatlar şəraitində ölkədə həyata keçirilən əsaslı struktur dəyişiklikləri turizm ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsini, habelə beynəlxalq təcrübənin yeni forma və metodlarından istifadə edilməsi tələblərini qarşıya qoyur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı: 2004-2008-ci illər / red. F.C. Əliyev; tərt. T.Ə. Əhmədov. Bakı: Nurlar NPM, 2004, 160 s.
2.Azərbaycan Respublikasında kurortların 2007-2017-ci illərdə inkişafının sürətləndirilməsi tədbirləri haqqında. Bakı: Elm, 2007, 177 s.
3.Azərbaycan Respublikasının coğrafiyası: II cild. Bakı: Avropa, 2015, 372 s.
4. Azərbaycan regionları. DSK. Bakı, 2016, 819 s.
5. Azərbaycan Respublikasının coğrafiyası: III cild. Bakı: Avropa, 2015, 399s.
6.Azərbaycan Respublikasının Milli İqlim Proqramı. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2002, 267 s.
7.Azərbaycan Respublikasının ekoloji atlası. Bakı: Kartoqrafiya fabriki, 2009,156 s.

**РЕЗЮМЕ**
**ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ТУРИЗМА В ГУБА-ХАЧМАЗСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ**
***Абдуллаева З.Г., Велиев А.Дж..***

***Ключевые слова:*** *туристическое хозяйство туризма, Губа-Хачмазский экономический район, ресурсы рекреации, историко-культурные памятники, внутренний и внешний туризм*

В статье анализируется потенциал развития туризма в Губа-Хачмазском экономико-географическом районе. Потенциальная база Губа-Хачмазского экономико-географического района способствует динамичному развитию рационального туризма.

**SUMMARY**
**THE PROSPECTS OF TOURISM DEVELOPMENT IN GUBA-KHACHMAZ ECONOMIC REGION**
***Abdullayeva Z.H., Valiyev A.J.***

***Key words:*** *tourism industry, Guba-Khachmaz economic region, recreation resources, historical and cultural monuments, domestic and foreign tourism*

The article analyzes the potential of tourism development in Guba-Khachmaz economic and geographical area. The potential base of Guba-Khachmaz economic and geographical region contributes to the dynamic development of sustainable tourism.

Daxilolma tarixi: İlkin variant 22.11.2018
Son variant 27.03.2019